Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 70-71
(7119-7120) ❁ Cümə, 13 sentyabr 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2013-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə qərara alıram:

1. 1995-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1978-1994-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2013-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2013-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 sentyabr 2013-cü il.*



## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçikanın, Yunanıstanın, İtaliyanın, Niderlandın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul etmişdir.

❁ ❁ ❁

Prezident İlham Əliyev respublikanın cənub bölgəsinə—Salyan, Biləsuvar və Cəlilabad rayonlarına səfəri çərçivəsində bir sıra mühüm əhəmiyyətli obyektlərin açılış mərasimlərində iştirak etmişdir.

❁ ❁ ❁

Azərbaycan Prezidenti İlham Əliyev Yardımlı, Masallı, Astara və Lənkəran rayonlarında səfərdə olmuşdur.

❁ ❁ ❁

Dövlətimizin başçısı İlham Əliyev Bakının Nəsimi rayonundakı 19 və 240 nömrəli tam orta məktəblərin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.

❁ ❁ ❁

Prezident İlham Əliyev İordaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel Mohammad Abdilehi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

❁ ❁ ❁

Azərbaycan Prezidenti İlham Əliyev MDB Sərhəd Qoşunları Komandanlar Şurasının 70-ci iclasının nümayəndələri ilə görüşmüşdür.

❁ ❁ ❁

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun yeni təyin olunmuş amerikalı həmsədri Ceyms Horliki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yevlax, Bərdə rayonlarında və Naftalan şəhərində olmuş, bu regionlarda gedən yeni quruculuq işləri ilə maraqlanmışdır.

**Miri RƏHİMOV.**

## Xalqın rifahı üçün

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əmək pensiyalarının baza hissəsinin artırılması haqqında 27 avqust 2013-cü il tarixli sərəncam imzalamışdır. Sərəncam əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə verilmişdir.

Bu sərəncama uyğun olaraq ümumilikdə əmək pensiyalarının baza hissəsinin 17,6 faiz artırılması gözlənilir.

Pensiyanın baza hissəsini 100 faiz alanların pensiyasının artımı 15 manat, bəzi kateqoriyaya aid olan pensiyaçılarda isə daha çox olacaqdır. Pensiyanın baza hissəsi 120 faiz həcmində olanlar üçün artım 19 manat 50 qəpik, 200 faiz həcmində olan I qrup gözdən əlillər üçün 31 manat 50 qəpik təşkil edəcəkdir. Milli Qəhrəmanların ailə üzvlərinin pensiyasının baza hissəsi 30 manat artırılaraq 200 manata, şəhid ailəsi üzvlərinin pensiyasının baza hissəsi 27 manat 75 qəpik artırılaraq 185 manata çatdırılacaqdır.

Döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının, habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçuların pensiyasının baza hissəsi 16 manat 50 qəpik artacaqdır.

Böyük Vətən Müharibəsi iştirakçılarının pensiyasının baza hissəsi 28 manat 50 qəpik, bu sıradan olan I qrup əlillər üzrə 37 manat 50 qəpik, II qrup əlillər üzrə 31 manat 50 qəpik, III qrup əlillər üzrə isə 28 manat 50 qəpik artırılacaqdır.

Xatırladaq ki, artım nəzərə alınmaqla hazırda Azərbaycanda əmək pensiyalarının baza hissəsi 128 ABŞ dolları təşkil edir. Bu göstəriciyə görə respublikamız MDB ölkələri arasında üçüncü yerdədir. Qonşu Qazaxıstanda əmək pensiyasının baza hissəsi 185 ABŞ dolları, Belarusiyada 129 dollar, Rusiyada 109,3 dollar, Ukraynada 111,8 dollar, Ermənistanda isə 31,7 dollar təşkil edir.

Bu xəbəri də pensiyaçıların nəzərinə çatdırmağı özümüzə borc bilirik ki, Yeni ilin yanvar ayından əmək pensiyalarının baza hissəsinin bir daha artırılması gözlənilir.

## Azərbaycan qlobal rəqabətlik indeksinə görə 39-cu yerdədir

### Yaxud ötən illə müqayisədə 7 pillə irəliləmişdir

Sentyabr ayının 4-də Dünya İqtisadi Forumunun 2013--2014-cü il üzrə Dünya Rəqabətlik hesabatı rəsmi olaraq beynəlxalq ictimaiyyətə təqdim edilmişdir. Azərbaycan qlobal rəqabətlik reytinqinə görə 148 dövlət arasında daha 7 pillə irəliləyərək 39-cu yerdə qərarlaşmışdır. 2012--2013-cü ilin hesabatında 144 ölkə arasında 46-cı, 2011-2012-ci ilin hesabatında isə 142 ölkə arasında 55-ci yeri tutmuşdur.

Qeyd edək ki, qlobal iqtisadiyyat böhran dövrünü yaşadığı bir zamanda Azərbaycanın 7 pillə irəliləməsi və dünyanın 50 ən rəqabətqabiliyyətli iqtisadiyyatı sırasna daxil olması əlbəttə, yüksək qiymətləndirilmişdir.

Reytinq cədvəlində Qazaxıstan 50-ci, Rusiya 74-cü, Gürcüstan 72-ci, Ermənistan 79-cu pillələrdə dayanırlar. Dünyanın ən rəqabət qabiliyyətli ölkəsi isə İsveçrədir. İlk beşliyə daxil olan digər ölkələr isə Sinqapur, Finlandiya, Almaniya və ABŞ-dır.

Bunlardan əlavə, Azərbaycan makroiqtisadi mühit göstəricisinə görə 8-ci, əmək bazarının səmərəliliyi göstəricisinə görə 30-cu, texnoloji hazırlıq səviyyəsinə görə 50-ci, innovasiyalara görə isə 51-ci yerdə qərar tutmuşdur.